# “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Özəl tibb fəaliyyəti haqqında” və “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 23** **Bakı şəhəri, 22 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 445 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1907 (Cild I) ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası"nın 1.6-cı bəndində "peşəkarlıq səviyyəsinin" sözləri "peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2560 (Cild I); 2025, № 2, maddə 196, № 9, maddə 877) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in 7.1-ci bəndinin "İnformasiya sistemindən əldə olunan məlumatlar" sütununda "şəxsin həkim, yaxud orta tibb işçisi olması" sözləri "şəxsin həkim, orta tibb işçisi, əczaçı olması" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 354 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Tibbi-iqtisadi ekspertizanın aparılması Qaydası"nın 6.1.2-ci yarımbəndində "praktiki tibbi" sözləri "praktik tibb" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 355 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması Qaydası"nın 5.1.2-ci yarımbəndində "praktiki tibbi" sözləri "praktik tibb" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 oktyabr tarixli 456 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1168) ilə təsdiq edilmiş "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.5-ci yarımbənddə "tibb mütəxəssislərinin" sözləri "və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin" sözləri ilə əvəz edilsin;

5.2. 3.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.4. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 49-1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi və peşə yararlılığının yoxlanılması məqsədilə sertifikasiyasını həyata keçirmək, onların davamlı peşəkar inkişafı istiqamətində tədbirlər görmək;".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 aprel tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 391) ilə təsdiq edilmiş "Aviasiya personalının dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, psixoloji müayinələrdən keçirilməsi, peşəyə yararlılığını müəyyən edən tibb müəssisələrinin və onların əməkdaşlarının sertifikatlaşdırılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1-ci bənddə "praktiki" sözü "praktik" sözü ilə əvəz edilsin;

6.2. 5.6.3-cü yarımbənddə "praktiki" sözü "praktik" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "olmadıqda" sözündən sonra "və ya qüvvədə olmadıqda" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan.- 2026.- 23 yanvar (№13).- S.3.